# Bakı Enerji Həftəsi mövqelərimizi daha da gücləndirəcək

**"Bakı Enerji Həftəsinin qlobal əhəmiyyət kəsb etməsi bir daha təsdiqləndi. Bu tədbir beynəlxalq ictimaiyyətin müxtəlif komponentləri arasında körpü rolunu oynayır. Bakı Enerji Həftəsi dövlətlərarası əməkdaşlığı gücləndirir, ölkələrə qarşılıqlı fayda və inkişaf gətirir".**



Bu fikirləri Milli Məclisin deputatı Azər Badamov deyib. Deputat bildirib ki, Bakı Enerji Həftəsinin keçirilməsi ənənə halını alıb: "Bu tədbir Azərbaycanda ilk dəfə 1994-cü ildə keçirilib. Azərbaycanın dirçəldilməsi üçün xarici investisiyaların cəlb olunmasına ən çox ehtiyac duyulan vaxtda Bakıda ilk dəfə neft-qaz sərgisinin keçirilməsi mühüm hadisə idi. Təsadüfi deyil ki, 1994-cü ildə "Əsrin müqaviləsi" də məhz bu tədbirdən sonra imzalanıb. Nəticədə ölkə iqtisadiyyatına milyardlarla dollar həcmində sərmayə daxil olub".

Deputat qeyd edib ki, son illərdə keçirilən Bakı Enerji Həftəsi fərqli məzmunda baş tutur: "Otuz il əvvəl neft-qaz sektorunun dirçəldilməsinə hesablanmış Bakı Enerji Həftəsi bu gün özündə "yaşıl enerji" sektorunu da əhatə edir. Onillər əvvəl bu tədbirə az sayda ölkənin şirkəti qatılırdısa, hazırda 37 ölkədən 300-dək şirkət iştirak edir. Həmin şirkətlərin Bakı Enerji Həftəsində ən son texnologiyalarla hazırlanmış yenilikləri nümayiş etdirmələri həm neft-qaz sənayesinin inkişafında, həm də "yaşıl enerji" mənbələrinin formalaşdırılmasında əhəmiyyətli rol oynayır".

Azər Badamovun sözlərinə görə, Azərbaycanın "yaşıl gündəliyi" çox genişdir. Ölkəmiz COP29-a ev sahibi seçilənə qədər özünün "yaşıl gündəliyi"ni artıq müəyyənləşdirmişdi. Belə ki, işğaldan azad olunmuş ərazilərimiz "yaşıl zona" elan olunmuş, araşdırmalar sayəsində "yaşıl enerji" potensialımızın təxminən 200 qiqavat olması təsdiq edilmişdir. "Azərbaycan "yaşıl gündəliyi"ni inkişaf etdirməklə qlobal iqlim dəyişikliklərinə qarşı mübarizəyə də töhfə verir, istilik effekti yaradan qaz emissiyalarının azaldılması istiqamətində əməli addımlar atır. Bakı Enerji Həftəsi çərçivəsində isə 3 bərpaolunan enerji stansiyasının təməlləri atılıb. Bu stansiyaların istifadəyə verilməsi ilə "yaşıl enerji" potensialımız 1 qiqavat artacaq. Ümumiyyətlə, 2027-ci ilin sonuna qədər Azərbaycan 2 qiqavat "yaşıl enerji" istehsal etməyi planlaşdırıb. Məhz "yaşıl enerji" istehsalı qazın sərfiyyatına qənaət etməyimizə yol açır. 1 qiqavat "yaşıl enerji" istehsalı 0,5 milyard kubmetr təbii qaza qənaət etməyimizə imkan verəcəkdir. "Yaşıl enerji" sektorunun inkişafı sayəsində qənaət olunan qazı da Avropaya ixrac edə biləcəyik", - deyə müsahibimiz əlavə edib.

Bakı Enerji Həftəsi çərçivəsində vacib məsələlər ətrafında müzakirələr aparıldığını deyən deputat vurğulayıb ki, yaxın gələcəkdə proseslər daha da intensivləşdiriləcək və mühüm layihələrin reallaşdırılması istiqamətində ciddi addımlar atılacaq. Bakı Enerji Həftəsi həm də ölkəmizə yeni investisiya axınını sürətləndirəcək.

"Enerji sektorunda əməkdaşlıq etdiyimiz aparıcı şirkətlər sözümüzün imzamız qədər möhkəm olduğuna inanırlar. Çünki Azərbaycan imzasını atdığı bütün razılaşmaların icrasında məsuliyyətli və sadiqdir. Bu baxımdan Bakı Enerji Həftəsinin siyasi əhəmiyyəti də çox böyükdür. Sözügedən tədbir ölkəmizin siyasi mövqelərini gücləndirir və dostlarımızın sayını artırır", - deyə Azər Badamov yekunda bildirib.

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 7 iyun, № 119.- S.10.